# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 142** **Bakı şəhəri, 3 may 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 256 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısı"nda dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 256 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 9, maddə 1056; 2022, № 3, maddə 268, № 5, maddə 542; 2023, № 1, maddə 140) ilə təsdiq edilmiş 1 nömrəli əlavə – "Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısı"na aşağıdakı məzmunda 13-3-cü hissə əlavə edilsin:

"13-3. Laçın dövlət sərhədindən buraxılış məntəqəsi – Laçın rayonu (Malxələf kəndinin yaxınlığı), Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2023.- 5 may.- S.6.